**Azərbaycan Respublikasının Milli Kitabxanası ilə**
**Koreya Xalq Demokratik Respublikasının Xalq Tədris Mərkəzi**
**arasında Kitab mübadiləsi haqqında**

# Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Milli Kitabxanası və Koreya Xalq Demokratik Respublikasının Xalq Tədris Mərkəzi, öz daxili qanun və qaydalarına uyğun olaraq kitab mübadiləsi işində sıx əməkdaşlığı gücləndirmək məqsədilə aşağıdakılar barədə razılığa gəliblər:

## Kitabxana resurslarının mübadiləsi

1. Tərəflər mübadilə edilə bilən kitabxana resurslarının siyahısını əvvəlcədən mübadilə edirlər;
2. Tərəflər qarşılıqlı prinsip əsasında kitab və dövri nəşrlərin mübadiləsini edirlər;

Bu protokol imzalandığı tarixdən etibarən qüvvəyə minir və 3 il müddətində qüvvədə qalır. Tərəflərdən biri bu protokolun müddətinin bitmə tarixindən 6 ay əvvəl onu ləğv etmək barədə digərinə yazılı məlumat təqdim etmədiyi halda, protokolun qüvvədə olma müddəti avtomatik olaraq 3 il uzadılmış hesab olunur.

Bu protokol Azərbaycan, koreya və ingilis dillərində 2 nüsxədə tərtib edilmişdir, hər bir versiya bərabər səlahiyyətə malikdir. Hər hansı mübahisəli məsələ yarandıqda ingilis dilindəki nüsxə əsas götürülür.

**Azərbaycan Respublikası**
**Milli Kitabxanasının direktoru**
**professor Kərim Tahirov**

**Koreya DXR, Xalq Tədris**
**Mərkəzinin prezidenti**
**Sin Gwang Son**